# 28 may - Müstəqillik Günü - Azərbaycan dövlətçiliyinin ilk təcrübəsidir



**Çoxəsrlik dövlətçilik ənənələrimizin davamı olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 106 il ötür. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxdı. Xalqımız tərəfindən təntənəli şəkildə qeyd olunan 28 May - Respublika Günü - Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gün kimi tariximizə düşmüşdür. Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti Türk və İslam dünyasında ilk parlamentli respublika idi. 1990-cı ildən Respublika günü - dövlət müstəqilliyinin bərpa edilməsi günü dövlət bayramı kimi qeyd edilir Respublika günü - xalqımızın varlığını, böyüklüyünü və mübarizliyini sübut edən tarixi, qürurlu və sevincli məqamlardan biridir.**

Şanlı tariximizə qızıl hərflərlə həkk olunmuş Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatında böyük tarixi hadisə olmuşdur. 1918-ci ilin may ayının 28-də Azərbaycan milli şurası "İstiqlaliyyət Bəyannaməsi" ilə Azərbaycanın şimal torpaqlarında Azərbaycan Xalq Cümhuriyyəti yarandığını elan etdi. Bu tarixi sənədə görə Azərbaycan qonşu dövlətlərlə dostluq münasibəti quracaqdır. Azərbaycanın ilk Parlamenti və Hökuməti, həmçinin bayrağı, himni və gerbi təsis edildi, ana dili dövlət dili elan edildi. M.Ə.Rəsulzadənin təklifi əsasında 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı qəbul edildi. O vaxta qədər Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qırmızı rəngdə idi. Bununla yanaşı qısa müddətdə ordu quruculuğu sahəsində ciddi tədbirlər reallaşdırılaraq yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı. Azərbaycanın ilk universiteti təsis olunaraq elm və təhsilin, mədəniyyətin inkişafına xüsusi diqqət yetirilib.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə öz üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirərək xalqımızın milli mənlik şüurunu özünə qaytarıb və milli dövlətçilik ənənələrimizin zənginləşməsində böyük rol oynayıb.

28 May - Respublika günü istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.

Xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. Bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünyada ilk dəfə qadınlara seçmə-seçilmə haqqı verdi, qadın-kişi bərabərliyini təmin etdi, milli bank yaradaraq pul vahidini dövriyyəyə buraxdı, demokratiya anlayışını gətirdi, azad seçki üsuli-idarəsi yaratdı, beynəlxalq əlaqələr quraraq dövlətlərin Azərbaycanın istiqlalını tanımasına nail oldu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi.

Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli və siyasi şüurunun, yüksək mədəniyyətinin nəticəsi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövr tarixin keçməkeşli anına təsadüf edir. Müxtəlif maraqlarla ölkəyə yürüş edən xarici hərbi qüvvələrin çoxsaylı təzyiqləri nəticəsində 1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq şərəfli ömrünə son qoyuldu.

1991-ci ilin oktyabrında Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri və himni bərpa olundu. Azərbaycan dövlət müstəqilliyini 1991-ci ildə bərpa etsə də, biz bugünkü Azərbaycanı məhz ulu öndər Heydər Əliyevə borcluyuq. Çünki qardaş qırğınına, vətəndaş müharibəsinə, xaosa son qoyan dahi şəxsiyyətin sayəsində biz gənclər bu gün azad, müstəqil təhlükəsiz, bir dövlətdə yaşayıbyaradırıq. "Müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir" deyən ulu öndər Heydər Əliyevin gərgin əməyi sayəsində əsrin sonunda Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq mümkün oldu.

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinəşməsi nəticəsində ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi və Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu. Xalqın təkidi ilə hakimiyyətə gələn Heydər Əliyev dövlətimizin və dövlətçiliyimizin xilaskarı oldu.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi ilə beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlandı. Uzaqgörən liderin həyata keçirdiyi tədbirlər nəticəsində Milli Ordu formalaşdırıldı. Ümumilli lider Heydər Əliyev Azərbaycana qarşı artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bu müqavilə Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının parlaq təzahürüdür.Cümhuriyyətin adının özünə qaytarılması da məhz dövlətimizin xilaskarı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər dəfələrlə bildirmişdir ki, "Biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.

Bu gün Ümumilli lider Heydər Əliyev ideyaları onun layiqli davamçısı Silahlı Qüvvələrin Ali Baş Komandanı Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi onun milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir. Ali Baş Komandan tarixi keçmişimizə, varisi olduğumuz Xalq Cümhuriyyətinə bu qədər önəm verməsi xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Fərəhli haldır ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının növbəti ildönümü xalqımız tərəfindən qürur və sevinc hissi ilə qarşılanır.

Bu gün sevindirici haldır ki, artıq müstəqil dövlətimiz bir çox mötəbər, beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu isə ölkəmizin dünyada artan nüfuzundan xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun 44 gün davam edən Vətən müharibəsi zamanı Ermənistan ordusu üzərində şanlı qələbəsi ilə dövlətimizin ərazi bütövlüyü bərpa edilmişdir. Bu isə dövlət müstəqilliyimizin qüdrətinin daha da artdığını göstərir. Bütün bunlar əminliklə söyləməyə əsas verir ki müstəqilliyimiz əbədidir, dönməzdir və sarsılmazdır. Azərbaycan xalqının Vətən Müharibəsində böyük tarixi Qələbə qazanmasında şəhidlərimizin misilsiz xidmətləri var. Xalqımızın qəhrəman şəhid övladlarının qanı bahasına, həmçinin cəsarətli əsgər və zabitlərimizin hünəri, mərdliyi sayəsində Azərbaycanın ərazi bütövlüyü təmin edildi. İşğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri məhz siyasi-iqtisadi müstəqilliyin nəticəsi, dövlətin gücünün göstəricisidir. 44 günlük Vətən müharibəsinin şəhidləri öz adlarını xalqımızın tarixinə əbədi yazdılar. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva həmişə şəhid adını uca tutaraq, onları ehriramla anır.

Bugünkü müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi və Ümummilli liderimiz Heydər Əliyevin şah əsəridir. Çağdaş dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçiliyimiz tarixindəki rolu hər zaman xatırlanır. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək qiymətləndirən Ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycan dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dəfələrlə bəyan edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı möhtərəm cənab İlham Əliyev həmişə milli dövlətçilik tariximizin şanlı və parlaq səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, Cümhuriyyət liderlərinin xatirəsinə böyük diqqət və hörmətlə yanaşırlar. Ölkə Prezidentinin Sərəncamı ilə Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə "İstiqlal bəyannaməsi" abidəsi ucaldılması buna əyani sübutdur.

Uzun illər 28 may 1991-ci ildən 2021-ci ilədək Respublika Günü adlandırılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tariximizə yenidən işıq tutdu. "28 May - Respublika Günü"nün Azərbaycan parlamentinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında "Müstəqillik Günü" adlandırılmasına qərar verilib. Elə həmin gün də ölkə prezidenti İlham Əliyev "Müstəqillik Günü haqqında qanun"u təsdiqləyib. Qanunun təsdiqlənməsi ilə "28 May - Respublika Günü"nün adı dəyişdirilərək "28 May - Müstəqillik Günü" adlandırılıb. Prezident İlham Əliyevin "28 May - Respublika Günü"nü "28 May - Müstəqillik Günü" elan edərək tarixi həqiqəti bərpa etməsi ölkəmizin qədim dövlətçilik ənənələrinə verdiyi dəyərin bariz nümunəsidir. Məhz Prezident, Ali Baş Komandanımızın və rəşadətli Azərbaycan Ordusunun sayəsində xalqımız uzun illərdən sonra artıq 3-cü dəfədir ki "28 May - Müstəqillik Günü"nü torpaqlarımızın işğaldan azad edilməsinin sevinci, Vətən müharibəsi zəfərinin qüruru ilə yaşayır və qeyd edir.

***Gülnar BƏŞİROVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı - elmi işçi***